# Kitab bayramı hər kəsin bayramıdır



Qubada Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş X Ümumrespublika Kitab bayramı keçirildi. Rayon icra hakimiyyəti rəsmilərinin, Xaçmaz Regional Mədəniyyət İdarəsinin, rayon ictimaiyyəti nümayəndələrinin, mədəniyyət, təhsil işçiləri, gənclər, məktəblilər, ziyalılar, qubalı şair və yazıçılar, burada istirahətdə olan turistlər, KİV nümayəndələrinin də qatıldığı bu tədbirin keçirilməsində əsas məqsəd informasiya texnologiyalarının geniş yayıldığı dövrdə gənclərin mütaliə marağını artırmaq, kitabların təbliğinə nail olmaqdır.

Tədbir çərçivəsində təşkil olunmuş 40-a yaxın kitab sərgisində 180 adda müxtəlif dillərdə nəşr olunmuş 700-dən çox kitab nümayiş etdirildi. Burada həmçinin kitabsevərlərin iştirakı ilə məşhur əsərlərdən müxtəlif səhnəciklər göstərildi, intellektual yarışlar, maraqlı müsabiqələr keçirildi. Azyaşlı oxucular üçün “nağıl qəhrəmanları”nın paradları təşkil olundu. Sərgilərdə, həmçinin, fəal oxucuların əl işləri də yerini tapmışdı. Bayram iştirakçıları tərəfindən “Heydər Əliyev-95”, Azərbaycan Xalq Cümhuriyyəti-100”, “Qubalı şair və yazıçılar”, “Turizm guşəsi”, “Elektron nəşrlər”, “Azərbaycan xalçaçılıq sənəti”, “Bədii ədəbiyyat”, “Uşaqların sevimli yazıçıları”, “Nağıl dünyası”, “Bacarıqlı əllər” sərgilərinə daha çox maraq göstərildi.

Tədbiri giriş sözü ilə açan **Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev** bayram münasibətilə iştirakçıları təbrik etdi. Kitabın biliyin, intellektin və mədəniyyətin yüksəlməsindəki rolundan danışdı.

Sonra çıxış edən **Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev və MKS-nin direktoru Saməddin Nəsirov** qeyd etdilər ki, Kitab bayramı hamının, hər kəsin bayramıdır. İnsanın formalaşmasında, mədəni səviyyəsinin yüksəlməsində kitabın rolu böyükdür. Kitab bayramının ənənəvi olaraq keçirilməsi göstərir ki, cəmiyyətimizdə kitaba böyük məhəbbət və sevgi var. Ölkəmizdə kitabxana sahəsi ildən-ilə inkişaf edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu sahəyə xüsusi diqqəti olmuşdur. Heydər Əliyevin mədəniyyət siyasətini böyük uğurla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, kitab və kitabxana işinin inkişafında yeni bir




mərhələnin əsası qoyulub.

Tədbirin bədii hissəsi də maraqlı oldu. Məktəblilər vətənə, ulu öndərə, Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan şeirlər söylədilər. Quba Dövlət Sosial-İqtisad Kollecinin tələbəsinin ifasında “Ulu Öndər” şeiri çox əzəmətlə səsləndi. Bayramda Uşaq Musiqi, Uşaq İncəsənət məktəbi şagirdlərinin ifasında vətənpərvərliyə aid musiqilər, eləcə də istedadlı balacaların ifasında təqdim olunan rəqslər və “Meyvələrin söhbəti” təmsili maraqla qarşılandı. Bayram çərçivəsində bir qrup kitabxana işçisinə, fəal oxuculara, kitabxananın tədbirlərində yaxından iştirak edən körpələr evi-uşaq bağçalarına Fəxri fərmanlar təqdim olundu. Tədbir zamanı 78 yeni oxucu kitabxanaya üzv yazıldı.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**